

Ə.Ə.Namazovanın «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2



Şəkidə səhiyyə naziri Oqtay Şirəliyevin səyyar qəbul günü keçirildi

3



Mehriban Əliyeva İsrail Tibb Akademiyasının fəxri doktoru diplomu aldı

5


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 17-18 (609) 30 sentyabr 2016-cı il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev: «Sağlamlıq dövlət üçün çox önəmlidir»

*Bunu dövlət başçısı Biləsuvar MRX-nın açılışında söyləyib*




2

## Azərbaycanın reproduktiv sağlamlıq təcrübəsi müsbət qiymətləndirilib

*Bu barədə ÜST Avropa Regional Komitəsinin 66-cı sessiyasında danışılıb*



3

## Azərbaycan dövləti 3 minədək xəstəni hemodializlə təmin edir



10


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH MEDICAL COMPANY



www.arash.az


## Təyyar Bayramov: «Hər bir insanın həyatında musiqi var»




8

### Афоризм

*Этот мир - горы, а наши поступки - крики: эхо от нашего крика в горах всегда возвращается к нам.*

*Джалаладдин РУМИ*

## Ə.Ə.Namazovanın «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda tibb elminin inkişafında xidmətlərinə və tibb kadrlarının yetişdirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ədilə Əvəz qızı Namazova «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 sentyabr 2016-cı il.*

## Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Ədilə Namazovaya

Hörmətli Ədilə xanım!

Sizi – Azərbaycan tibb elminin və təhsilinin görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, səadət və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

60 ildən artıq bir dövr ərzində Siz elm, təbabət və təhsili üzvi şəkildə birləşdirərək həm alim və müəllim kimi, həm də uşaqların sağlamlığını qoruyan bir həkim kimi böyük uğurlar əldə etmisiniz. Siz öz nəcib fəaliyyətinizlə uzun illər ərzində Azərbaycanda uşaq təbabətinin inkişafında əvəzsiz rol oynamısınız. Apardığınız çoxşaxəli tədqiqatlarla Siz ölkəmizdə və beynəlxalq aləmdə böyük hörmət qazanmısınız.

Azərbaycan Tibb Universitetinin tibb və səhiyyə sahəsində nüfuzlu mərkəz kimi formalaşmasında, sözsüz ki, Sizin kimi alimlərin böyük əməyi vardır. Neçə nəsil pediatr həkimlərin yetişdirilməsində bilavasitə iştirak edərək, Siz daim yüksək ixtisaslı kadrların hazırlanması prosesinə layiqli töhfələr vermisiniz. Azərbaycanda uşaqların sağlamlığının keşiyində duran minlərlə insan böyük qürur hissi ilə vaxtilə tələbəniz olduğunu xatırlayır. Sizin vətəndaş mövqeyiniz və aktiv ictimai fəaliyyətiniz də təqdirəlayiqdir.

Bu gün Siz ömrünüzün müdriklik çağında yenə də zəngin təcrübənizi və yüksək elmi potensialınızı səhiyyəmizin inkişafı naminə səfərbər edirsiniz. Ümidvaram ki, bundan sonra da insanların sağlamlığının qorunması üçün öz qüvvə və bacarığınızı əsirgəməyəcəksiniz.

Ən xoş arzularla

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 sentyabr 2016-cı il.*

# Prezident İlham Əliyev: «Sağlamlıq dövlət üçün çox önəmlidir»

### *Bunu dövlət başçısı Biləsuvar MRX-nın açılışında söyləyib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Biləsuvarda 132 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının açılış mərasimində iştirak edib.**

Səhiyyə naziri Oqtay Şirəliyev Prezident İlham Əliyevə burada aparılan əsaslı təmir və yenidənqurma işləri barədə məlumat verib. Qeyd olunub ki, Biləsuvar MRX-nın əvvəlki binası 1974-1976-cı illərdə inşa edilmişdi və artıq yararsız vəziyyətə düşmüşdü. Səhiyyə ocağının əsaslı təmirinə 2013-cü ildə başlanılıb və yenidənqurma işləri 2016-cı ilin iyul ayında başa çatdırılıb.

Dövlət başçısına xəstəxananın ərazisində inşa edilmiş əsas korpus və müxtəlif təyinatlı digər binalar barədə məlumat verilib. Bildirilib ki, tibb müəssisəsində 8 şöbə fəaliyyət göstərir. Bunlar cərrahiyyə, doğum, travmatologiya, infeksion xəstəliklər, dializ, intensiv terapiya, poliklinika və kompüter tomoqrafiya aparatı olan şüa diaqnostikası şöbələridir. Tibb ocağının ən müasir standartlara cavab verən bütün korpuslarında əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb.





Xəstəxana ilə tanışlıqdan sonra səhiyyə müəssisəsinin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev Biləsuvar MRX-nın əsaslı təmirdən sonra açılışı münasibətilə hər kəsi təbrik edib. 1970-ci illərdə tikilmiş xəstəxanada vaxtaşırı cari təmir aparılsa da, əsaslı təmirə ehtiyac yarandığını söyləyən dövlət başçısı hazırda onun çox gözəl olduğunu deyib: «İndi xəstəxana ilə tanış olarkən görürəm ki, hər şey ən yüksək səviyyədədir. Həm avadanlıq, həm təchizat, eyni zamanda, xəstəxananın şəraiti çox yaxşıdır. Bütün palatalar çox səliqəli, abaddır. Bu xəstəxana nümunəvi xəstəxanalardan biri olacaq. Əslində, son vaxtlar Azərbaycanda tikilən, yaxud təmir olunan bütün tibb ocaqları bu səviyyədədir. Bu, Azərbaycan standartıdır. Çünki Azərbaycan vətəndaşları ən gözəl tibbi xidmətlə təmin olunmalıdırlar.

Eyni zamanda, bu xəstəxana burada çalışan həkimlər üçün iş yeridir. Onların iş yeri indi çox gözəl vəziyyətdədir. Əsas odur ki, indi Biləsuvarda da Mərkəzi Rayon Xəstəxanası bütün standartlara cavab verir.

Bu zonada, həmçinin ölkəmizin bütün bölgələrində yeni xəstəxanalar ya tikilib, ya da ki, əsaslı təmir olunub. Son 13 il ərzində 600-dən çox tibb ocağı yenidən qurulub, tikilib. Bu, səhiyyə sistemimizin inkişafı üçün çox böyük uğurdur, böyük nailiyyətdir və nəticədir. Bakı şəhərində isə ən böyük xəstəxanalar tikilib, təmir edilib.

Bu gün səhiyyə sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi işi, demək olar ki, başa çatır. Bir neçə rayonda işlər davam etdirilir, o cümlədən bu yaxınlarda Masallıda xəstəxana istifadəyə veriləcək. İndi əsas məsələ ondan ibarətdir ki, insanlara keyfiyyətli xidmət, qayğı göstərilsin. Bu istiqamətdə də işlər gedir. Əminəm, yeni, müasir avadanlıqla işləyə bilən həkimlər də təcrübə toplayıblar, kurslar keçiblər ki, xəstələrə yaxşı xidmət göstərsinlər».

«Sağlamlıq hər bir insan üçün, dövlət üçün çox önəmlidir», - söyləyən ölkə rəhbəri insan sağlamlığını bir neçə amilin şərtləndirdiyini vurğulayıb: «Onların arasında, əlbəttə ki, tibbi xidmət birinci yerdədir. Sağlam həyat tərzi, gözəl ekoloji vəziyyət, fiziki fəallıq, təmiz ərzaq məhsulları da öz rolunu oynayır. Ancaq tibbi müayinə və müalicə xüsusi yer tutur». Dövlət başçısı xatırladıb ki, artıq bir neçə ildir Azərbaycanın bütün bölgələrində tibbi müayinə proqramı icra edilir, kütləvi diaqnostik müayinə tədbirləri aparılır: «Hər il milyonlarla insan pulsuz müayinədən keçir, onların xəstəlikləri aşkarlanır və sonra müalicə təyin edilir. Mən son 13 il ərzində açdığım bütün xəstəxanaların tədbirlərində bu məsələyə toxunuram. Bir daha demək istəyirəm ki, hər bir vətəndaş ildə bir dəfə diaqnostikadan keçməlidir, xüsusilə indi – bütün imkanların olduğu şəraitdə. Qan analizləri, ultrasəs, rentgen... İndi həkimlərin tövsiyəsi ilə hər bir vətəndaş özünə yaxşı baxmalıdır. Bu, ilk növbədə vətəndaşın özünə lazımdır. Digər tərəfdən, Azərbaycan xalqı daha da sağlam olmalıdır. Xüsusilə bizim veteranlarımız, uşaqlarımız, gənc nəsil sağlam olmalıdır. Bütün insanlar sağlam olmalıdır. Bax, bu xəstəxanaların tikintisi bu məqsədi güdür».

Prezident İlham Əliyev son illər ərzində tibb müəssisələrinin tikinti, əsaslı təmir və müasir avadanlıqlarla təchizatına çox böyük dövlət vəsaitinin xərcləndiyini bildirib: «Biz bunu edirik, çünki sosial sahə, həmişə olduğu kimi, prioritet təşkil edir. Bu gün də belədir, sabah da belə olacaq. Çünki biz insanlar üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır».

Dövlət başçısı vurğulayıb ki, ancaq iqtisadi inkişaf bu işləri mümkün edir. Bir çox ölkələr var ki, onlar arzulasalar da, buna imkanları yoxdur. Vaxtilə Azərbaycan da belə idi. Ancaq bu gün iqtisadi cəhətdən qüdrətli ölkəmiz infrastruktur layihələri, sosial infrastruktur layihələri, məktəb binalarının, idman komplekslərinin tikintisi və s. sahələrə böyük vəsait ayırır.

Ölkə rəhbəri Biləsuvar rayonunun timsalında inkişafdan danışıb, bu rayonda içməli su layihəsindən, qazlaşdırılma prosesindən, kənd yollarının abadlaşdırılmasından, Bakı-Astara-İran sərhədi magistral yolunun çəkilməsindən, Olimpiya kompleksi, digər müəssisələrin tikilməsindən söz açıb.

Azərbaycan Prezidenti neftdən asılılığımızın tamamilə aradan qaldırılması üçün kənd təsərrüfatının inkişafının əhəmiyyətini vurğulayıb, bu sahədə görülən işləri diqqətə çatdırıb. Qeyd edib ki, bu layihələri icra etdikcə bizim maliyyə imkanlarımız artacaq, bu isə vəsaiti sosial layihələrə - xəstəxanaların, məktəblərin, yolların tikintisinə, köçkünlərin problemlərinin həllinə və s. yönəltməyə imkan verəcək.

Sonra **həkim Vəsilə Həsənova** dövlət başçısının tapşırığına əsasən Biləsuvar Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilməsinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib: «Belə gözəl, yüksək səviyyəli, müasir tibbi avadanlıqla təchiz olunmuş səhiyyə ocağı biz biləsuvarlılar üçün böyük töhfədir. Belə bir hədiyyəni bizə bəxş etdiyiniz üçün Sizə əhalimiz və səhiyyə işçilərimiz adından böyük minnətdarlığımızı bildiririk».

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycanın reproduktiv sağlamlıq təcrübəsi müsbət qiymətləndirilib

## *Bu barədə ÜST Avropa Regional Komitəsinin 66-cı sessiyasında danışılıb*

**Sentyabrın 12-dən 15-dək Danimarka Krallığının paytaxtı Kopenhagen şəhərində Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa Regional Komitəsinin 66-cı sessiyası keçirilib. ÜST-nin Avropa regionu üzrə 53 üzv dövlətinin səhiyyə nazirləri və digər yüksək vəzifəli təmsilçiləri, eləcə də vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri qitə miqyaslı sağlamlıq problemlərinin müzakirəsi üçün toplaşıblar.**

Üzv ölkələr Marqaret Çanın çıxışına dair şərhlərində təşkilatla əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluqlarını bildiriblər.

Sessiyada gündəlikdə duran qeyri-infeksion xəstəliklərə, virus hepatitlərinə, QİÇS və vərəmə qarşı mübarizə, reproduktiv sağlamlıq, «Sağlamlıq – 2020» strategiyası, beynəlxalq səhiyyə qaydaları, qlobal səhiyyə sistemlərinin strateji idarəetməsi, səhiyyə və sosial sektorun maliyyələşdirilməsi, ÜST-də



Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyevin rəhbərliyi ilə ölkəmizin nümayəndə heyəti sessiyanın işində iştirak edib.

Sessiya ərəfəsində ÜST Avropa Regional Komitəsinin İcraiyyə Komitəsinin iclası keçirilib. Toplantıda İcraiyyə Komitəsinə seçilmiş ölkələrin nümayəndə heyətlərinin rəhbərləri 66-cı sessiyanın gündəliyini, habelə ÜST ölkə ofislərinin strateji idarə mexanizmləri məsələlərini müzakirə ediblər.

ÜST Avropa Regional Komitəsinin 66-cı sessiyasının açılışında «BMT Şəhəri»nin himayədarı, Danimarka Krallığının Şahzadəsi Ülyahəzrət Meri xüsusi qonaq kimi iştirak edib.

Sessiyanın İdarə heyəti seçildikdən sonra, ənənəvi olaraq, ÜST Avropa Regional direktoru Jujanna Yakab hesabat nitqi ilə çıxış edib.

Regional Direktor öz çıxışında Ümumdünya Səhiyyə Assambleyasının 69-cu sessiyasının qətnamələrinin Avropada həyata keçirilməsindən, səhiyyənin maliyyələşməsindən, səhiyyə proqramlarının icrası üzrə donor ölkə və qurumlarla əlaqələrdən danışıb, habelə sessiyanın gündəliyində duran məsələlərlə bağlı ÜST rəhbərliyinin mövqe və tövsiyələri haqqında məlumat verib. Çıxışda infeksion və qeyri-infeksion xəstəliklərə qarşı mübarizə, ÜST-də islahatlar və «Sağlamlıq – 2020» strategiyası da geniş yer alıb.

Tədbirin üçüncü günü ÜST-nin Baş Direktoru Marqaret Çan hesabat nitqi ilə çıxış edib. Avropa Regional Komitəsinin sessiyasında sonuncu dəfə çıxış etdiyini bildirən Baş Direktor üzv-ölkələrin ekspertlərini ÜST-də islahatların davam etdirilməsində daha yaxından iştiraka çağırıb. Əsas donor ölkələrinin Avropa Regionunda olduğunu bildirən natiq problemlərin həllində bu ölkələrin müstəsna rolunu qeyd edib.

islahatlar və idarəçilik kimi məsələlər müzakirə olunub. Həmçinin ÜST Baş Direktoru seçkilərinə hazırlıq, Regional Komitənin komissiyalarının hesabatları və s. kimi təşkilati məsələlərə də baxılıb.

Qaydalara əsasən, gündəlikdə olan məsələlərin müzakirəsində əvvəlcə katibliyin üzvləri, sonra isə qeyri-hökumət və beynəlxalq təşkilatların nümayəndələri öz rəylərini veriblər.

Azərbaycan tərəfi sessiyada «Sağlamlıq – 2020» strategiyası, virus hepatitlərinə qarşı mübarizə, reproduktiv sağlamlıq və QİÇS-lə mübarizə məsələlərinə dair çıxışlar edib.

Reproduktiv sağlamlıq üzrə 2030-cu ilədək fəaliyyət planının müzakirələri zamanı Azərbaycanın müsbət təcrübəsi üzv ölkələr tərəfindən qeyd edilib, habelə məsələyə dair Dövlət Proqramının həyata keçirilməsi vurğulanıb.

QİÇS-lə mübarizədə hüquqi baza məsələsinə dair çıxışda «İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun hələ 2010-cu ildə qəbul edilməsi, habelə İİV-li şəxslərə Dövlət Proqramı çərçivəsində 22 adda dərman preparatının verilməsi üzv ölkələrə bildirilib.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyətinin ÜST Baş Direktoru Marqaret Çanla, ÜST Avropa Regional Direktoru Jujanna Yakabla, BMT Baş Katibinin QİÇS-lə mübarizə üzrə köməkçisi Mişel Kazaçkinlə, habelə Regional komitəyə üzv ölkələrdən Polşa, Türkiyə, Belarus, Rusiya Federasiyası və Özbəkistanın səhiyyə rəsmiləri ilə görüşləri keçirilib.

Həmçinin ÜST Baş Direktoru vəzifəsinə seçkilər ərəfəsində Azərbaycan Respublikası səhiyyə naziri Oqtay Şirəliyevin bu posta Efiopiya, Pakistan və Fransadan olan namizədlərlə işçi görüşləri olub.

# Şəkidə səhiyyə nazirinin səyyar qəbul günü keçirildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, müxtəlif dövlət orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.**

Bununla bağlı tərtib edilmiş səyyar qəbul günləri cədvəlinə müvafiq olaraq, səhiyyə naziri Oqtay Şirəliyev Şəki Rayon Mərkəzi Xəstəxanasında vətəndaşları qəbul edib.



Şəki ilə yanaşı, Oğuz, Qax, Balakən və Zaqatala rayonları sakinlərinin iştirak etdikləri qəbulda vətəndaşların səhiyyə sahəsinə aid şikayət və müraciətləri dinlənilib. Qaldırılan məsələlər əsasən sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı olub. Müraciətlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb, onların bəziləri yerindəcə həllini tapıb, digərləri ilə bağlı müvafiq göstərişlər verilib.

Səhiyyə Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

# Səhiyyə naziri Almaniya səfiri ilə görüşdü

**Səhiyyə naziri Oqtay Şirəliyev Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixayel Kinsqrabı qəbul edib.**

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə iki ölkə arasında səhiyyə və tibb elmi sahəsində əlaqələrdən danışılıb və gələcək perspektivlər müzakirə edilib.

Səhiyyə naziri Oqtay Şirəliyev bildirib ki, hazırda ölkələrimiz arasında səhiyyə və tibb elminin inkişafına dair saziş olmasa da, əməkdaşlığımız ən məhsuldar səviyyədə davam edir. Hər il onlarla azərbaycanlı müdavimin Almaniyanın ən nüfuzlu universitet klinikalarında səhiyyənin müxtəlif prioritet sahələri üzrə təkmilləşdirmə kurslarına göndərildiyini xatırladan nazir eyni zamanda qeyd edib ki, Almaniyanın nüfuzlu universitet klinikalarından gələn professor və müəllim heyəti ölkəmizdə keçirilən seminarlarda, elmi konfranslarda iştirak edir.

Səhiyyə naziri vurğulayıb ki, ölkəmizdə yeni tikilən klinikaların planlaşdırılması və layihələrin hazırlanmasında Almaniyanın müsbət təcrübəsindən istifadə olunur. Əczaçılıq sahəsində də iki ölkə arasında sıx əlaqələr mövcuddur. Belə ki, Almaniyada istehsal olunan bir çox dərman vasitəsi ölkəmizdə dövlət qeydiyyatından keçirilib və əczaçılıq bazarına çıxarılıb. İkitərəfli əlaqələrin digər bir istiqaməti də tibb təhsilidir. Azərbaycanda səhiyyə və tibb təhsili sistemində aparılan islahatlardan, rezidentura mərhələsinin tətbiqindən sonra onlarla universitet məzunu təhsilinin rezidentura hissəsini Almaniyanın universitet klinikalarında davam etdirib.

Öz növbəsində səmimi qarşılanmaya görə minnətdarlığını bildirən səfir Mixayel Kinsqrab Azərbaycan səhiyyəsində müsbət dəyişikliklərdən məmnunluqla danışıb. Qeyd edib ki, hazırda təcili tibbi yardım xidmətində istifadə edilən ambulansların Almaniyadan gətirilməsi də böyük etimad və xoş münasibətlərin nəticəsidir.

Görüşdə həmçinin 2017-2018-ci illərdə ölkəmizdə icbari tibbi sığortaya keçidlə əlaqədar olaraq Almaniyadan mütəxəssislərin Azərbaycana dəvət edilməsi məsələsi də müzakirə olunub.

# Azərbaycan və Almaniya hərbi tibb xidməti ekspertləri Bakıda təcrübə mübadiləsi apardılar



**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlıq planına əsasən, Bakıda iki ölkənin tibb xidməti üzrə ekspertlərinin görüşü keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə nazirliyin Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyev, Almaniya Federal Müdafiə Nazirliyi Çevik Tibb Əməliyyat mərkəzinin nümayəndələri Ronni Mixael və Mikael Zann iştirak ediblər.

İki gün davam edən tədbirdə hərbi tibb mütəxəssisləri «Tibb bölmələri əməliyyatlarda» mövzusunda təcrübə və fikir mübadiləsi aparıblar.

Səfər zamanı qonaqlar həmçinin Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub, bölmə və şöbələrdə yaradılmış şəraitlə, eləcə də müasir tibbi avadanlıqla təchiz edilmiş müalicə korpusları ilə tanış olublar.

# Tibb müəssisələrində pasiyentlər səsvermədə iştirak etdilər

*Mərkəzi Seçki Komissiyası və Səhiyyə Nazirliyi referendumla əlaqədar birgə seminar-müşavirə keçirib*



**Səhhəti ilə əlaqədar stasionarda müalicə alan vətəndaşlar 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsi (referendum) zamanı öz səsvermə hüquqlarından istifadə ediblər.**

Referenduma hazırlıq mərhələsində bununla əlaqədar təşkilati məsələlər Mərkəzi Seçki Komissiyasının Səhiyyə Nazirliyi ilə birgə keçirdiyi seminar-müşavirədə müzakirə olunub.

Komissiyanın inzibati binasında baş tutan tədbirdə MSK üzvləri, Səhiyyə Nazirliyinin rəsmiləri və MSK Katibliyinin nümayəndəsi səhhəti ilə əlaqədar müvəqqəti məskunlaşma yerlərində olan şəxslərin referendumda iştirakı ilə bağlı məruzələr və təqdimatlar ediblər. Belə vətəndaşların seçici kimi əhatə dairəsinin müəyyən edilməsi və seçki məntəqələrinin yaradılması, həmin məntəqələrdə səsvermənin təşkili, nəticələrin müəyyən olunması və ictimailəşdirilməsi, seçicilərin Referendum Aktı layihəsi ilə tanış olmaları, seçicilərin səhhəti ilə əlaqədar müalicə müəssisələrində yerləşdirilməsi, müəssisədən müəssisəyə köçürülməsi, çıxarılması, onların qeydiyyatı və siyahılarının tərtib edilməsi qaydaları, habelə səsvermə günü məntəqə seçki komissiyalarının vəzifələri və səsvermə prosedurları çıxışların mövzusu olub.

Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvləri, Səhiyyə Nazirliyinin nümayəndələri, MSK Katibliyinin aidiyyəti struktur bölmələrinin əməkdaşları, müvafiq dairə və məntəqə seçki komissiyalarının sədrləri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə seçicilərin səhhəti ilə əlaqədar müvəqqəti olduqları yerlərdə referendumun təşkilinə dair müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb, həmçinin iştirakçıların maraqlandıran suallar cavablandırılıb.

# Mehriban Əliyevaya İsrail Tibb Akademiyasının fəxri doktoru diplomu verildi

**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva beynəlxalq tibb elmi sahəsindəki xidmətlərinə və İsrail ilə Azərbaycan arasında səhiyyə əlaqələrinin inkişafına töhfələrinə görə İsrail Tibb Akademiyasının fəxri doktoru diplomuna layiq görülüb.**



Bu barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində İsrail tibb mütəxəssislərindən ibarət nümayəndə heyəti ilə görüşdə məlumat verilib.

Tədbirdə **Mərkəzin baş həkimi Azad Kərimli** dövlət başçısının sosialyönümlü siyasəti sayəsində ölkəmizdə səhiyyə sahəsində qazanılan uğurlardan, o cümlədən onkoloji yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb. Xüsusilə Milli Onkologiya Mərkəzində Uşaq Klinikasının yaradılmasında Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın müstəsna xidmətləri vurğulanıb.

Görüşdə iştirak edən **Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov** İsraillə bütün sahələrdə mövcud olan əməkdaşlıqdan söz açıb, bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyini qeyd edib. Baş nazirin müavini israilli həkimlərin ölkəmizdə gördükləri işləri yüksək qiymətləndirib, bir neçə şəhərdə pulsuz tibbi müayinə və konsultasiyalar təşkil etdiklərinə, təcrübə mübadiləsi apardıqlarına, ağır xəstələrin müalicəsi üçün tibb ocaqlarına avadanlıqlar hədiyyə etdiklərinə görə onlara minnətdarlığını bildirib. A.Şərifov qeyd edib ki, əsas məqsəd Heydər Əliyev Fondunun dəstəyi ilə bu layihəni daha da təkmilləşdirməkdir.



İsrail nümayəndə heyətinin başçısı, Hayfa şəhərindəki "Xorev" Tibb Mərkəzinin baş həkimi Roman Barak xoş münasibətə və onlara yaradılan imkana görə dövlətimizin başçısına təşəkkür edib, belə aksiyaların davamlı olacağını vurğulayıb.

Sonra İsrailli qonaq Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın beynəlxalq tibb elmi sahəsindəki xidmətlərinə və İsrail ilə Azərbaycan arasında səhiyyə əlaqələrinin inkişafına töhfələrinə görə İsrail Tibb Akademiyasının fəxri doktoru diplomuna layiq görüldüyünü bildirib.

Fəxri doktor diplomu ünvanına çatdırılması üçün Baş nazirin müavini Abid Şərifova təqdim edilib.

# ATU-nun diplomları İraqda tamhüquqlu təhsil sənədi kimi tanınacaq



**İraq hökumətinin avqustun 21-də verdiyi qərara əsasən, artıq Azərbaycan Tibb Universitetinin (ATU) diplomları həmin ölkədə tamhüquqlu təhsil sənədi kimi qəbul ediləcək.**

Bunu **İraqın Azərbaycandakı müvəqqəti işlər vəkili Fadil Əl-Şuveyli** ATU-nun rəhbərliyi ilə görüşü zamanı bildirib.

Görüşdə **Universitetin rektoru, professor Gəray Gəraybəyli** İraqlı diplomata rəhbərlik etdiyi ali tibb təhsili müəssisəsi haqqında, burada təhsil alan əcnəbi tələbələr və onlara yaradılan şərait barədə ətraflı məlumat verib. Qeyd edib ki, ATU-da təhsil alan xarici ölkə gəncləri arasında İraqdan olan tələbələr xüsusi fərqlənirlər.

İraqlı diplomat Fadil Əl-Şuveyli ölkəsinin Azərbaycan Tibb Universiteti ilə bağlı bu qərarını dəstəklədiyini deyib və iraqlı tələbələrin Azərbaycanda yüksək təhsil alaraq lazımi biliklərə yiyələndiklərindən məmnunluğunu ifadə edib. İraq rəsmisi ATU-da təhsil alan iraqlı tələbələrə qarşı çox yaxşı münasibətin olduğunu söyləyib.

Görüş zamanı Azərbaycanla İraq arasında olan dostluq münasibətlərinin təhsil müstəvisində də davam etdirildiyi, Tibb Universiteti ilə mövcud əməkdaşlığın buna bariz nümunə olduğu vurğulanıb. Gələcəkdə bu istiqamətdə işlərin davam etdiriləcəyi qeyd olunub.

# Qiyməti tənzimlənməyən dərmanların satışı qadağan ediləcək

**«Azərbaycanda dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənmədən satışı və yaxud tənzimlənən qiymətlərdən fərqli qiymətlərə satışı qadağan edilir». Bu fikir Milli Məclisin Səhiyyə komitəsinin sentyabrın 20-də keçirilən iclasında «Dərman vasitələri haqqında» qanuna əlavələrin müzakirəsi zamanı səsləndirilib.**

Komitə sədri Əhliman Əmiraslanov bildirib ki, qanuna edilən əlavələrə əsasən dərman vasitələrinin yerli istehsalçıları və xarici istehsalçılarının nümayəndələri qarşısında yeni öhdəlik qoyulur. Qanunun 4-cü (Dərman vasitələri ilə davranışın dövlət tənzimlənməsinin üsulları) maddəsinə edilməsi nəzərdə tutulan əlavəyə əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətləri tənzimlənmədən satışı və ya tənzimlənən qiymətlərdən fərqli qiymətlərlə satılması (dövlət satınalmaları zamanı və ya tibb müəssisələrinə təklif edilən topdansatış qiymətlərdən aşağı qiymətlər istisna olmaqla) qadağandır.

Qanunun 16-cı (Dərman vasitələri haqqında informasiyanın yayımlanması) maddəsinə ediləcək əlavəyə görə isə dərman vasitələrinin istehsalçıları, xarici istehsalçıların yerli nümayəndəlikləri (filialları) və ya onların müvəkkil etdikləri şəxslər dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məqsədi ilə bəyannamələri, hesabat sənədləri və zəruri məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidirlər.

Qanuna edilən yeni dəyişikliyə əsasən bu tələblərin pozulmasına görə 1 il ərzində 3 dəfə məsuliyyətə cəlb olunmuş hüquqi və fiziki şəxslərin lisenziyası «Lisenziyalar və icazələr haqqında» qanuna uyğun olaraq, onu verən orqan tərəfindən 6 ayadək dayandırılır.

İclasda «Dərman vasitələri haqqında» qanuna yeni 14-1-ci (Bioloji fəallığa malik qida əlavələri) maddənin əlavə edilməsi də müzakirəyə çıxarılıb. Bununla Azərbaycanda bioloji fəallığa malik qida əlavələrinin xəstələr üçün həkim reseptinə yazılması qadağan edilir.

Dəyişikliyə görə, bu tip qida əlavələri dərman vasitəsi hesab edilməyəcək. Belə ki, onların satışı ilə bağlı yeni tələblər irəli sürülür. Həmin maddədə bildirilir ki, bioloji fəallığa malik qida əlavələri orqanizmin gücləndirilməsi, qidanın zənginləşdirilməsi məqsədi ilə həkim tərəfindən tövsiyə oluna bilər. Lakin xəstəliklərin qarşısının alınması və ya müalicəsi məqsədilə təyin olunan dərman vasitələrini əvəzləmir. Bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılması qadağandır.

Qida əlavələri dərman vasitəsi ilə eyni tərkibli ola bilməz. Bioloji fəallığa malik qida əlavələrinin dərman vasitələri ilə eyni tərkibli olub-olmamasını müəyyənləşdirmək məqsədilə bioloji fəallığa malik qida əlavələrini müvafiq icra hakimiyyəti orqanı ekspertizadan keçirir. Əlavələrin ekspertizadan keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti müəyyənləşdirir.

Qida əlavələrinin üzərində və onların istifadəsi təlimatlarında (içlik vərəqələrində) aydın, seçilən, qalın hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmuş «dərman vasitəsi deyildir» yazılmalıdır.

Bioloji fəallığa malik qida əlavələrinin satışı aptek təşkilatlarında, ərzaq mağazalarında və bu məqsədlər üçün təşkil olunmuş xüsusi köşklərdə sanitar-gigiyenik tələblərə əməl edilməklə həyata keçirilir.

Qeyd edək ki, bioloji qida əlavələri qida rasionunu zənginləşdirmək məqsədi ilə bitki, heyvan, mineral mənşəli və ya kimyəvi yolla alınmış bioaktiv maddələr və onların komplekslərinin farmasevtik formada hazırlanaraq gündəlik qəbuletmə dozası müəyyənləşdirilmiş məhsuldur.

Müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycanlı professor Rusiya cərrahlarına ustad dərsləri keçib



**Rusiya Federasiyasının Dağıstan Respublikasının Mahaçqala şəhərində Endoskopik cərrahiyyə üzrə II beynəlxalq konfrans keçirilib.**

Müasir cərrahiyyənin aktual sahəsi olan az invaziv texnologiyaların inkişafına həsr edilmiş konfransda rusiyalı cərrahlarla yanaşı, xarici ölkələrdən – Fransadan və Azərbaycandan dəvət olunmuş ekspert səviyyəli cərrahlar öz təcrübələrini dağıstanlı həmkarları ilə bölüşüblər.

Ekspert mütəxəssislər arasında azərbaycanlı alim – Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Ümumi cərrahiyyə kafedrasının professoru Qurban-xan Müslümov da olub.

«Canlı cərrahiyyə» formatında təşkil edilən konfransda ekspertlər yerli mütəxəssislər qarşısında canlı əməliyyatlar aparıb, ustad dərsləri keçiblər.

Azərbaycanlı cərrah toplantıda yoğun və düz bağırsaq xərçənglərinin müasir cərrahi müalicə üsulları – laparoskopik və laparotom taktika barədə məruzə oxuyub. Həmçinin alimin qida borusu xərçəngi zamanı torakolaparoskopik ezofaqektomiya mövzusunda video-mühazirəsi dinlənilib.

Professor Q.Müslümovun apardığı bir neçə əməliyyat – prostat vəzinin xoşxassəli hiperplaziyasının transuretral rezeksiyası, uretranın distal bölümünün strikturasının endoskopik korreksiyası, Qoldşteyn üsulu ilə venada mikrocərrahiyyə əməliyyatları konfrans iştirakçıları üçün əməliyyat otağından birbaşa translyasiya olunub. Bununla yanaşı, həmyerlimiz həm də konfransın bir neçə iclasına sədrlik edib.

# Bərdədə hərbi cərrahiyyə üzrə seminar

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyi Azərbaycan Respublikası Səhiyyə və Müdafiə nazirlikləri ilə birgə Bərdə Müalicə Diaqnostika Mərkəzində hərbi cərrahiyyəyə dair seminar təşkil edib.**

Tədbirdə Azərbaycanın mülki və hərbi hospitallarından 40-a yaxın mütəxəssis təqdimat və müzakirələr vasitəsilə hərbi cərrahiyyədə anesteziya, infeksiyaların nəzarətdə saxlanması və fövqəladə hallar zamanı xəstə axınının idarə olunması ilə bağlı biliklər əldə ediblər.

Azərbaycanda bu qəbildən ilk dəfə təşkil olunan seminar BQXK-nin müharibə zamanı yaralanmış xəstələrin müalicəsində və yerli həkimlərə seminarlar keçirilməsində çoxillik təcrübəsi olan cərrahları Martin Herrmann (Almaniya) və Marko Pinna Pintor (İtaliya) tərəfindən keçirilib.

BQXK-nin Bərdə ofisinin rəhbəri Cihad Nabhan təmsil olunduğu qurumun 1989-cu ildən münaqişələrin təsir etdiyi ərazilərdə hərbi cərrahiyyə ilə bağlı seminarlar keçirdiyini bildirib: «Məqsədimiz xəsarət almış hər bir xəstənin düzgün müalicə edilməsi üçün tibbi personalın bacarıqlarının öyrənilmə və təcrübə mübadiləsi vasitəsilə artırılmasına nail olmaqdır».

# Sağlam uşaq dünyaya gətirmək istəyən bu müayinədən keçməlidir

**2016-cı il sentyabrın 28-də Respublika Perinatal Mərkəzində Respublika Müalicəvi Diaqnostika Mərkəzi (RMDM) növbəti təqdimatı təşkil edib. Tədbirdə «Reproduktiv sağlamlıqda müasir laborator-diaqnostik metodların rolu» mövzusunda RMDM-in İSO15189: 2007 sertifikatını almış mütəxəssisi - Laboratoriya şöbəsinin müdiri Arif Yusifov çıxış edib.**



Yüksək nəzəri biliklərə və zəngin praktik təcrübəyə malik olan A.Yusifov təqdimatda hər bir qadının sağlam olması üçün vacib olan məqamlardan söhbət açıb. O vurğulayıb ki, qadınlar reproduktiv sağlamlıqlarının qayğısına qalmaq üçün hamiləlikdən əvvəl, hamiləlik zamanı və hamiləlikdən sonra bir sıra müayinələrdən keçməlidirlər. A.-Yusifov qadınların sağlam uşaq dünyaya gətirməsi üçün irsi trombofiliya müayinəsinin vacibliyini diqqətə çatdırıb. Bunun üçün RMDM-də müasir laborator-diaqnostik metodlardan istifadə olunduğu bildirib.

Respublika Perinatal Mərkəzinin tibb heyətinin böyük marağına səbəb olan təqdimatın sonunda iştirakçıların sualları ətrafında fikir mübadiləsi aparılıb.

# Dünya şöhrətli transplantoloq ATU-da mühazirə oxuyub

**Koreya Respublikasının Tibbi Liderlər Korporasiyasının (MLC) prezidenti, professor Dak Yonq Hanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetində (ATU) olub.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşdə rektor rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verib. Qeyd olunub ki, hazırda universitetdə 8 minə yaxın tələbə və rezident təhsil alır, onların min nəfərdən çoxu xarici tələbədir.

Orqan nəqli üzrə dünya şöhrətli alim Dak Yonq Han qeyd edib ki, Koreya Tibbi Liderlər Korporasiyası Azərbaycandan olan professor-həkimlərlə əməkdaşlığın qurulmasında çox maraqlıdır.

Qonaqlar – professor Dak Yonq Han, Koreya Mərkəzi və Cənubi Amerika Assosiasiyasının sədr müavini Sunq Çul Şin, MLC-nin baş katibi Sanq Min An ATU-nun klinikaları, o cümlədən tədris təlim mərkəzindəki simulyasiya otaqları ilə tanış olublar.

Sonra ATU-nun Tədris Cərrahiyyə Klinikasında koreyalı alimlərin iştirakı ilə toplantı keçirilib. Klinikanın direktoru, professor Surxay Hadıyev son illər Koreya Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın daha da gücləndiyini, müxtəlif sahələrdə əlaqələr yaradıldığını qeyd edib: «Səhiyyə əməkdaşlığı sahəsində də mühüm addımlar atılıb. 2007-ci ildə Koreyadan gələn həkim briqadası Qəbələdə öz təcrübələrini bizim həkimlərlə bölüşmüşdülər. Ümid edirəm ki, aramızdaki körpü daimi olacaq».

Professor Dak Yonq Han Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, Seulda fəaliyyət göstərən «Asan» klinikasının fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, Koreyada ilk dəfə 1992-ci ildə vəfat etmiş şəxsdən mədəaltı vəzinin və böyrəyin köçürülməsi əməliyyatı həyata keçirilib. «Asan» klinikasında 2000-ci ildə mininci böyrəkköçürmə əməliyyatı icra edilib.

Daha sonra Dak Yonq Han «Böyrək və pankreasın köçürülməsi» mövzusunda maraqlı mühazirə ilə ATU-nun tələbələri və rezidentləri qarşısında çıxış edib. O məlumat verib ki, ölkəsində indiyədək 4000 böyrək, 300 mədəaltı vəzi transplantasiyası həyata keçirilib. Koreyada ən kiçik donor dördaylıq, ən yaşlısı isə 80 yaşında olub.

Mühazirədən sonra koreyalı professor tədbir iştirakçılarının suallarını cavablandırıb.

# ATU-ya xarici tələbə qəbulu rekord səviyyəyə çatıb

**Bu il Azərbaycan Tibb Universitetinə (ATU) xarici ölkələrdən tələbə qəbulu rekord səviyyədə olub. Universitetin hazırlıq şöbəsinə artıq təxminən 300 nəfər, birbaşa I kursa 30 nəfər, rezidenturaya 10 nəfər, magistraturaya isə 1 nəfər qəbul edilib.**

Bu barədə ATU-nun xarici tələbələrlə iş üzrə dekanı İsmayıl Əfəndiyev məlumat verib. Onun sözlərinə görə, əcnəbi tələbələrin universitetə maraq göstərməsi bu təhsil ocağının dünyada olan hörmətindən irəli gəlir: «Görülən işlər nəticəsində İraq dövləti rəsmi olaraq ATU-nun diplomunu tanıyır. Həmin iş İran, Türkiyə və s. ölkələrdə də gedir. Bu istiqamətdə də biz bir sıra nailiyyətlərə müvəffəq olmuşuq. İndi ATU nəinki qonşu ölkələrdə, həmçinin iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə də maraq doğurur. Məsələn, bu il artıq bizə ABŞ, İsveçrə, Finlandiyadan tələbələr qəbul olub».

İ.Əfəndiyev həmçinin qeyd edib ki, bu işdə ATU-nun üzərinə böyük məsuliyyət düşür: «Xarici tələbələrin çoxu ingilis dilində təhsil alır. Biz də bu məsuliyyəti dərk edərək universitetin əməkdaşları üçün Xarici dillər kafedrasında xüsusi dil təkmilləşdirmə kursları təşkil etmişik».

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Azərbaycanda uşaq əhalisi nevroloji yardımla əhatə olunub

**Ölkəmizin uşaq əhalisinə ixtisaslaşdırılmış nevroloji müayinə və müalicə xidmətləri göstərən Səhiyyə Nazirliyi Uşaq Nevroloji Xəstəxanasına bu ilin 6 ayı ərzində 11 mindən çox uşaq müraciət edib, onlardan 1455 nəfəri stasionar müalicəyə qəbul olunub. Zəruri müalicə aldıqdan sonra 1381 xəstə evə buraxılıb.**

Bu barədə Səhiyyə Nazirliyi mətbuat xidmətinin ölkəmizdə uşaq əhalisinə göstərilən ixtisaslaşdırılmış müayinə və müalicə xidmətləri ilə bağlı yayımladığı press-relizdə məlumat verilib.

Bildirilib ki, dövlətimizin qarşısında prioritet məsələlərdən biri kimi duran genofondumuzun qorunması məqsədilə Azərbaycanda son illərdə uşaqların sağlamlığının mühafizəsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Görülən işlər sırasında uşaq xəstəliklərinin erkən diaqnostikası məsələləri mühüm yer tutur. Uşaqlar arasında yayılan patologiyaların profilaktikasında onların icbari dispanserizasiyadan keçirilməsinin xüsusi rolu vardır.

Uşaq sağlamlığı sahəsində nevroloji xəstəliklərin vaxtında aşkarlanması və müalicəsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan pediatrik yardım üzrə ölkəmizdə ön sıralarda olan Uşaq Nevroloji Xəstəxanasının fəaliyyəti xüsusi qeyd edilməlidir.

1969-cu ildən fəaliyyət göstərən bu tibb müəssisəsi 2011-ci ilin dekabr ayında tam təmir olunaraq istifadəyə verilib. Xəstəxanada 40 nəfəri nevropatoloq olmaqla 68 həkim və 88 orta tibb işçisi azyaşlıların sağlamlığına xidmət edir.

Altımərtəbəli binanın hər bir şöbəsində quraşdırılan müasir avadanlıqlar diaqnozu vaxtında və dəqiq qoymağa imkan verir. Xəstəxanada intensiv terapiya palatası, ultrasəs müayinəsi, exokardioqramma, qanalma otaqları, oftalmologiya, elektroensefaloqrafiya - beyin rentgeni kabineti və laboratoriyalar fəaliyyət göstərir. Altıncı mərtəbədə müalicə-bərpa şöbəsi, lazımi avadanlıqla təchiz edilən müalicəvi bədən tərbiyəsi salonu yaradılıb.

Xəstəxanada həmçinin ən son texnologiyalara uyğun avadanlıqlarla təchiz edilmiş masaj və fizioterapiya kabinetləri, psixoloq otağı, müayinə otaqları vardır.

Tibb müəssisəsində nevroloji qüsurları olan uşaqların müayinəsi və müalicəsi yüksək səviyyədə həyata keçirilir.

# Bakı Sağlamlıq Mərkəzində bu il 2 mindən çox əməliyyat icra edilib

**Bu rəqəm Azərbaycanın ən böyük tibb müəssisəsi olan Bakı Sağlamlıq Mərkəzində (BSM) kütləvi informasiya vasitələrinin nümayəndələri üçün keçirilən hesabat konfransında səsləndirilib.**




Tədbirdə **mərkəzin direktoru Hikmət Həsənov** bu tibb müəssisəsinin Prezident İlham Əliyevin 2010-cu il 6 avqust tarixli Sərəncamı əsasında inşa olunduğunu və 2014-cü ilin əvvəllərində ölkə başçısının şəxsən iştirakı ilə əhalinin istifadəsinə verildiyini diqqətə çatdırıb. Bildirib ki, 550 çarpayılıq BSM-də tibbin ən son elmi-texniki yenilikləri tətbiq olunur. Mərkəzdə təbabətin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün hər cür şərait yaradılıb. Şöbələr dünyanın ən müasir tibbi texnika və avadanlığı ilə təchiz olunub. Onların bir çoxu ölkə təbabətində ilk dəfə tətbiq edilib.

H.Həsənov qeyd edib ki, 13 şöbədən ibarət Bakı Sağlamlıq Mərkəzində 2016-cı ilin 8 ayı ərzində 7225 xəstə müalicə və müayinədən sonra sağalma ilə evə yazılıb. Bu isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 13,1 faiz çoxdur. Bunlar əsasən doğum, endokrinologiya, terapiya, cərrahiyyə, nevrologiya, otorinolarinqologiya və yenidoğulmuşların patologiyası şöbələrinin pasiyentləridir. Mərkəzdə 136 həkim, 59 rezident və 257 tibb bacısı əhalinin sağlamlığının qorunmasına xidmət edir. Bu ilin 8 ayı ərzində kollektivin bir çox üzvləri müəssisə rəhbərliyi tərəfindən göstərdikləri keyfiyyətli tibbi yardıma görə fəxri fərmanla təltif olunublar. Klinikada müalicə almış xəstələr tərəfindən yazılı olaraq direktorun adına 47, Bakı Baş Səhiyyə İdarəsinə 11 təşəkkürnamə göndərilib.

Mərkəzin direktoru bildirib ki, BSM-də bu ilin 8 ayı ərzində 2116 əməliyyat icra edilib ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 34 faiz çoxdur. Burun-qulaq-boğaz əməliyyatları 8 faiz, cərrahiyyə əməliyyatları 19,2 faiz, ginekoloji əməliyyatlar 6,8 faiz artıb. Qeysəriyyə əməliyyatlarının sayı isə ötən illə müqayisədə 8 faiz azalıb.

**BSM-in direktor müavini, Səhiyyə Nazirliyinin cərrahiyyə üzrə baş mütəxəssisi Hacıqulu Bağırov** isə bildirib ki, Azərbaycanda icra olunan 180 min cərrahiyyə əməliyyatının yalnız 0,2 faizi ölümlə nəticələnir. Baş cərrah bunun yaxşı göstərici olduğunu, inkişaf etmiş Avropa ölkələrində əməliyyatlar zamanı ölüm göstəricisi ilə eyni səviyyədə olduğunu vurğulayıb. H.Bağırov qeyd edib ki, ölkəmizdə bütün növ cərrahiyyə əməliyyatları icra olunur, bunların çoxu BSM-də də həyata keçirilir. Bakı Sağlamlıq Mərkəzi həm də laparoskopiya əməliyyatlarının geniş çeşiddə həyata keçirildiyi tibb müəssisəsidir.

# Sağlamlıq imkanları məhdud uşaqlar müalicə kursları alırlar

**Səhiyyə Nazirliyinin Uşaq Bərpa Müalicə Mərkəzində (UBMM) müalicə alan uşaqların 40 faizi sinir sistemi xəstəliklərindən, 30 faizi dayaq-hərəkət sistemi patologiyalarından, 20 faizi yuxarı və aşağı tənəffüs sistemi xəstəliklərindən, 10 faizi isə digər müxtəlif patologiyalardan əziyyət çəkir.**

Bu barədə Nazirliyin mətbuat xidmətindən verilən məlumatda bildirilir. Həmçinin qeyd edilir ki, bu tibb müəssisəsinə ilk dəfə müraciət etmiş xəstələrin sayı 2015-ci ildə 98 nəfər, bu ilin ilk 6 ayında isə artıq 88 nəfər olub. Mərkəzə daxil olmuş xəstələr qeydiyyata götürülərək, hər iki aydan bir müalicə kursu keçirlər.

Statistik rəqəmlər tək ilkin müraciətlərin deyil, ümumi gəlişlərin də (ilk və növbəti gəliş) artdığını göstərir. Belə ki, 2015-ci ilin ilk 6 ayı ərzində UBMM-ə ümumi gəlişlərin sayı 19 661 təşkil edirdisə, 2016-cı ilin birinci yarımilliyində bu rəqəm 20 612-yə çatıb.

Səhiyyə Nazirliyinin 2014-2020-ci illər üzrə Strateji Planına əsasən uşaqlıq dövrünə xas olan əlilliyin profilaktikası və müalicəsi sahəsində aparılan işlər sayəsində UBMM-nə daxil olan 1 yaşına qədər uşaqların sayı əvvəlki illə müqayisədə 40 faiz artıb.

Mərkəz Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2014-cü ildə əsaslı təmir olunub və Səhiyyə Nazirliyi tərəfindən müasir reablitasiya avadanlıqları, fizioterapevtik cihazlarla təmin edilib. Burada Bərpa-müalicə şöbəsi, Fizioterapiya və tibbi bərpa şöbəsi, həmçinin klinik diaqnostik laboratoriya fəaliyyətdədir.



UBMM-nə bərpa müalicəsinə ehtiyacı olan 18 yaşına kimi xəstələr sahə poliklinikaları tərəfindən göndərilirlər. Burada uşaqlar xüsusi prinsiplər əsasında çoxprofilli, yüksək dərəcəli ixtisaslaşdırılmış müalicə kursu keçirlər. Reablitasiya kursu müalicənin mümkün qədər tez başlanılmasına, hər bir xəstəyə fərdi yanaşmaya və çox mərhələli, uzun müddətli bərpa müalicəsinin təşkil edilməsinə əsaslanır. Mərkəzə gələn hər bir pasiyent üçün onun yaşı, xəstəliyinin ağırlıq dərəcəsi, yanaşı xəstəlikləri nəzərə alınmaqla, il ərzində 3-6 mərhələdə fərdi reablitasiya kursu tərtib olunur.

Mərkəzdə valideynlərlə də iş aparılır, onlara xəstə uşağın sağlamlığının bərpasına məsuliyyət hissi aşılanır, onların bu prosesdə aktiv surətdə iştirakına səy göstərilir. Valideynlərlə aparılan maarifləndirmə tədbirlərindən biri kimi Səhiyyə Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən UBMM-də keçirilən, həm burada müalicə olunan sağlamlıq imkanları məhdud uşaqların, həm də onların valideynlərinin iştirak etdiyi "Günəş hamı üçündür" adlı maarifləndirmə layihəsini qeyd etmək olar.

Mərkəzdə müalicə olunan xəstələrin, onların valideynlərinin və media nümayəndələrinin iştirakı ilə "dəyirmi masa" təşkil olunub. Bu tədbirdə valideynlər uşaqlarına göstərilən qayğıya, onların müalicəsi üçün tibb işçilərinin səylərinə, ümumilikdə, səhiyyə sahəsində həyata keçirilən köklü islahatlara, pozitiv dəyişikliklərə görə minnətdar olduqlarını bildiriblər.

Uşaq Bərpa Müalicə Mərkəzində sağlamlıq imkanları məhdud uşaqların fiziki reabilitasiyası ilə yanaşı, onların dolğun həyat yaşamasına və sosial adaptasiyasına da çox önəm verilir. Belə ki, mərkəzdə təşkil olunmuş art-terapiya (rəsm terapiyası) kursu keçən xəstələr bu il Azərbaycan Rəssamlıq Akademiyasının Muzey-sərgi kompleksində "Mənim rəngli dünyam" adlı sərgidə iştirak ediblər. Hətta əlində fırça tuta bilməyən xəstələr də barmaqlarını rəngə batıraraq yaratdıqları rəsmlərdə öz arzularını əlvan rənglərin köməkliyi ilə təsvir ediblər. Belə rəsm və rəng terapiyası uşaqların psixoloju reablitasiyasına, sosial adaptasiyasına və inteqrasiyasına kömək edir.

Bundan əlavə, burada Səhiyyə Nazirliyinin və Azərbaycan Respublikası Uşaq Paralimpiya Komitəsinin dəstəyi ilə boçço oyunu üzrə dərnək təşkil edilib. Uşaqların bu sahədə nailiyyətləri onlara gələcək həyata inam hissi aşılayır və həyata adaptasiyaya böyük kömək edir.

BAŞ SPONSOR:

HB Co LTD

Sağlam gələcək - bizimlə gələcək!

Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Tibb universitetlərində Bilik günü

**Azərbaycanın bütün təhsil ocaqlarında olduğu kimi, ali və orta ixtisas tibb təhsili müəssisələrində sentyabrın 15-də Bilik günü qeyd olunub. O cümlədən tibb mütəxəssisləri hazırlayan ali məktəblərdə – Azərbaycan Tibb Universitetində (ATU) və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (BMDTU) Bakı filialında bu günə həsr olunmuş təntənəli mərasimlər keçirilib.**

### Azərbaycan Tibb Universiteti

ATU-da Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayan mərasimdə **universitetin rektoru, professor Gəray Gəraybəyli** çıxış edərək, tələbələri yeni tədris ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Ölkəmizdə Bilik gününün keçirilməsi ənənəsinin əsasının Prezident İlham Əliyev tərəfindən qoyulduğunu xatırladan Gəray Gəraybəyli deyib: «Azərbaycanda elmi biliklərin, təhsil sisteminin, səhiyyənin ardıcıl inkişafı Prezidentin hərtərəfli tərəqqiyə aparan uzaqgörən siyasətinin tərkib hissəsini, əsas özəyini təşkil edir».

Rektor bildirib ki, bugünkü nailiyyətlərin əldə edilməsi uzun illərdən bəri ATU əməkdaşlarının apardıqları elmi axtarışların, gərgin əməyin, çəkilən zəhmətin sayəsində mümkün olub. O, diqqətə çatdırıb ki, 2016-2017-ci tədris ilində Azərbaycan Tibb Universitetinə 1002 nəfər qəbul edilib. Onlardan 954-ü həkim, hərbi həkim, 48-i isə hərbi feldşer ixtisasını seçib. ATU-ya qəbul olunanlardan 3 nəfəri 700 bal, 416 abituriyent isə 600-dən çox bal toplayıb.

**İnsan anatomiyası kafedrasının müdiri professor Vaqif Şadlinski** bu təhsil ocağının nəinki ölkəmizdə, ümumiyyətlə regionda fəaliyyət göstərən universitetlər arasında seçildiyini söyləyib.

Bu il qəbul imtahanlarında 700 bal toplayaraq ən yüksək nəticə ilə ATU-nun Müalicə-profilaktika fakültəsinə qəbul olunan **tələbə Orxan Zülfüqarov** isə müəllimlərinin etimadını doğruldacağını bildirib.

Universitetin professor-müəllim heyətinin, tələbələrin və valideynlərin iştirak etdiyi toplantıda bu il ATU-ya qəbul olunan bir qrup gəncə tələbə biletləri təqdim edilib.



### İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı

Bilik günü və yeni dərs ilinin başlanması münasibətilə İ.M.Seçenov adına BMDTU-nun Bakı filialında keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının və Rusiya Federasiyasının dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən **Bakı filialının rektoru, professor Əziz Əliyev** yeni dərs ilinin başlanması münasibətilə birinci kurs tələbələrini təbrik edib, bu filialın yaranma tarixi barədə məlumat verib. Qeyd edilib ki, İ.M.Seçenov adına BMDTU-nun Bakı filialı Prezident İlham Əliyevin müvafiq Sərəncamı əsasında, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə yaranıb. Düz bir il əvvəl fəaliyyətə başlayan təhsil ocağının təntənəli açılış mərasimində Heydər Əliyev Fondunun prezidenti, İ.M.Seçenov adına BMDTU-nun məzunu və fəxri professoru Mehriban Əliyeva iştirak edib.

Natiq Azərbaycanda tibb təhsilini təkmilləşdirmək, ölkə vətəndaşlarının Rusiyanın tibb universitetlərində təhsil arzusunu reallaşdırmaq məqsədilə yaradılmış Bakı filialına göstərilən dəstəyə görə BMDTU-nun rektoru, professor Pyotr Qlıboçkoya təşəkkür edib, burada müalicə işi ixtisası üzrə mütəxəssislərin hazırlandığını, bu il birinci kursa 125 tələbənin qəbul olunduğunu, ümumilikdə, iki kursda 225 tələbənin təhsil aldığını söyləyib. Qeyd edib ki, filialda dərs deyən müəllimlərin 85-90 faizi Moskvadan olan professorlardır. Rektor həmçinin bildirib ki, BMDTU-nun Bakı filialı Rusiyanın, ABŞ-ın və Almaniyanın, habelə ölkəmizin aparıcı klinikaları ilə müqavilələr bağlayıb. Təhsildə fərqlənən tələbələr həmin klinikalarda ixtisasartırma kursları keçəcəklər.

Rektor Əziz Əliyev tələbələrə təhsildə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən **İ.M.Seçenov adına BMDTU-nun innovasiya siyasəti və beynəlxalq fəaliyyət üzrə birinci prorektoru Andrey Svistunov** bu ali məktəb haqqında ətraflı məlumat verib, qeyd edib ki, o, beynəlxalq reytinqdə Rusiyanın ən yaxşı tibbi profilli ali məktəbidir. 2018-ci ildə Rusiyanın bu ən böyük, aparıcı və qocaman ali tibb məktəbinin yaradılmasının 260 illiyinin tamam olacağını deyən A.Svistunov onun məşhur məzunları arasında bir çox görkəmli alimlərin və tibb xadimlərinin – ilk növbədə, universitetin adını daşıdığı İ.M.Seçenovun və digərlərinin olduğunu söyləyib. Bildirib ki, bu ali məktəbin məşhur məzunlarından biri də hazırda İ.M.Seçenov adına BMDTU-nun fəxri professoru olan Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Andrey Svistunov tələbələrə müraciətlə deyib: «Böyük alimlər və məşhur insanlar pleyadasını yetişdirmiş Rusiyanın ən yaxşı ali məktəbində təhsil almaq sizin üçün tale qisməti və nadir imkandır. Bununla bərabər, bizim universitetin unikallığı üzərinizə bir çox öhdəliklər də qoyur. Təbabət sadəcə peşə seçimi deyil. Bu, tale deməkdir, təbabətə sədaqət və hər dəqiqə, hətta hər saniyə ona xidmət etmək deməkdir».

# Bu il Dövlət Elmi Tibb Kitabxanasına 3 mindən artıq oxucu gəlib



**Ölkəmizdə tibb elminin və səhiyyənin ilkin sənədlərlə və informasiya ilə təmin edilməsi məqsədilə mükəmməl bir sistem yaradılıb. Bura ilk növbədə tibb kitabxanaları və elmi tibb informasiya bölmələri aiddir. Həmin təşkilatlar içərisində aparıcı mövqe Səhiyyə Nazirliyinin Dövlət Elmi Tibb Kitabxanasına məxsusdur. Kitabxana səhiyyə orqanlarında çalışan alim və mütəxəssisləri, tibb tələbələrini informasiya ilə vaxtında təmin edir, səmərələşdirici təkliflər irəli sürür.**

Bu barədə Dövlət Elmi Tibb Kitabxanasının fəaliyyətinə həsr olunmuş tədbirdə məlumat verilib.

Toplantıda kitabxananın direktoru Yeganə Əmirəliyeva çıxış edərək, rəhbərlik etdiyi müəssisə haqqında məlumat verib. Qeyd edib ki, Respublika Dövlət Elmi Tibb Kitabxanası Azərbaycan SSR Xalq Komissarları Sovetinin əmri ilə 1939-cu ildə yaradılıb və 1940-cı ildən fəaliyyətə başlayıb. Səhiyyə orqanlarına, elmi-tədqiqat və müalicə-profilaktika müəssisələrinə əhalinin sağlamlığı problemləri, sosial-gigiyena, səhiyyənin təşkili, klinik və profilaktik təbabət, sanitar-epidemioloji səhiyyə və tibb elminin digər sahələri ilə məşğul olan alim və mütəxəssislərinə kitabxana-biblioqrafiya və sənəd-informasiya xidməti göstərən kitabxana Azərbaycanda tibb kitabxanaları şəbəkəsinə təşkilatı-metodik rəhbərlik edir, onların əlaqəli fəaliyyətini təmin edir, elmi-tədqiqat institutlarının, ali



və orta tibb təhsili müəssisələrinin elmi-tibbi informasiya şöbələrinin fəaliyyətinə metodiki rəhbərliyi və onların işinin koordinasiyasını həyata keçirir. Biblioqrafik xidmətə faktoqrafik informasiyanın verilməsi, ölkəşünaslıq soraq-axtarış sisteminin təşkili, müxtəlif aspektli biblioqrafik göstəricilərin hazırlanması və ictimai istifadəsinin təşkili kimi xidmətlər də daxildir.

Bildirilib ki, kitabxanada informasiya xidmətinin daha da təkmilləşdirilməsi üçün 2006-cı ildə təbabətə dair müxtəlif mövzulu CD-lərdən ibarət kartoteka yaradılıb. Burada istifadəçilərin informasiya tələbatı tədqiq olunur, şifahi sorğular və anketləşdirmə əsasında oxucuların maraq və meyilləri, tibb işçilərinin bugünkü fəaliyyət istiqamətləri aşkar edilir. Bu da öz növbəsində fondun komplektləşdirilməsində nəzərə alınır.

Y.Əmirəliyeva qeyd edib ki, kitabxananın elmi-metodiki şöbəsi Azərbaycanın 93 tibb müəssisəsinin nəzdində fəaliyyət göstərən kitabxanalarla əməkdaşlıq edir. Bu əlaqələri möhkəmlətmək məqsədilə tez-tez bölgələrə səfərlər təşkil olunur, zona məşğələləri keçirilir. «Bu ilin səkkiz ayı ərzində kitabxanaya 3 250 oxucu gəlişi və 19 120 kitab verilişi qeydə alınıb. Kitabxanada əsas fondla yanaşı, Ümumdünya Səhiyyə Təşkilatının Fondu, Nadir nəşrlər fondu, həmçinin son ilin kitab və dövri nəşrlərindən ibarət Yeni nəşrlər fondu, Depozitari və arxiv fondu var. Bundan əlavə, kitabxanada lokal kompyuter və internet şəbəkəsi yaradılıb, onun vasitəsilə İRBİS-64 kitabxana-informasiya proqramının kataloqlaşdırma və komplektləşdirmə modulları ilə işə başlanıb. Bununla əlaqədar olaraq kitabxananın müvafiq sahələrində çalışan əməkdaşlar burada keçirilən təlim məşğələlərdə iştirak ediblər. Tibb kitabxanasında həmçinin elektron kataloq təşkil edilib. Hazırda 58 jurnal, 6 qəzet elektron kartotekaya, 4 115 kitab, 14 029 məqalə elektron kataloqa, 3 500 nüsxə elektron komplektləşdirmə moduluna daxil edilib. Kitabxanaya alınan yerli, eləcə də xarici qəzet və jurnallardakı 14 029 məqalənin təsviri elektron kataloqda öz əksini tapıb», - deyə kitabxananın direktoru bildirib.

Dövlət Elmi Tibb Kitabxanasının direktoru diqqətə çatdırıb ki, səhiyyə naziri Oqtay Şirəliyevin 2014-cü ilin dekabr ayında imzaladığı Səhiyyə Nazirliyinin tabeliyində olan kitabxana-informasiya şəbəkəsinin təkmilləşdirilməsi barədə əmrinə əsasən, vahid elektron tibb kitabxana şəbəkəsinin yaradılması və elektron kataloqların genişləndirilməsi məqsədilə yeni kitabxana-informasiya proqramı yaradılıb. Hazırda kitabxananın yeni internet saytı üzərində işlər gedir. Bu saytda tibb kitabxanası şəbəkəsinin vahid elektron toplu kataloqunun təqdim edilməsi planlaşdırılır.

# Təyyar Bayramov: «Hər bir insanın həyatında musiqi var»




***O, xanəndəlik sənətinə bir qədər gec – 27 yaşında gəlsə də, qısa zamanda şöhrət qazanıb, gənc yaşda Əməkdar artist fəxri adına layiq görülüb. Onu hər birimiz ilk Televiziya Muğam Müsabiqəsinin qalibi, Opera və Balet Teatrının Şah İsmayılı kimi tanıyırıq. Həmsöhbətim muğamlarımızın istedadlı ifaçısı, gözəl səsini sevə-sevə dinlədiyimiz Təyyar Bayramovdur.***

**- «Tibb qəzeti» olduğumuza görə söhbətə səhhətinizdən başlayaq.**

- Səhhətim yaxşıdır. Ümumiyyətlə, mən gec-gec xəstələnirəm. Ciddi ehtiyac olmayınca da həkimə müraciət etməyənlərdənəm. Bu sanki bizim millətin qanındadır.

**- Səsinizə qarşı da belə biganəsiniz?**

- Əslində, nə səhhətimə, nə də səsimə qarşı biganə deyiləm. Zərərli vərdişlərdən uzağam, tez-tez səs həkiminə müraciət edirəm. Hətta deyərdim ki, səsinin qayğısına qalan, onu qoruyan 5-6 nəfər xanəndə varsa, onlardan biri mənəm. Səsimə zərər verən, onu korlayan qidaları da qəbul etmirəm.

**- Qarabağlı uşaqlar adətən oxumağa çox tez başlayırlar. Bəs siz niyə sənətə 27 yaşında gəldiniz? O vaxta qədər səsinizdən əmin deyildiniz, yoxsa xanəndə olmaq istəmirdiniz?**

- Əslində, uşaqlıqdan mənə yaxşı səsim olduğunu çox deyiblər. Orta məktəbdə müəllimlərim də valideynlərimə bu barədə bildirmişdilər. Hələ o vaxtlar müxtəlif tədbirlərdə, dərnəklərdə iştirak edirdim. Ümumiyyətlə, bizim nəsildə yaxşı səsi olanlar çoxdur. Amma heç biri bu sənətin ardınca getməyib. Axı, Qarabağda səsi olmaq qeyri-adi hal sayılmırdı. Ona görə mən də uşaqlıq arzuma çatmaq üçün çalışdım, hüquqşünas oldum. Çünki hələ kiçik yaşlarımdan böyüyüb cinayətkarları tutacağımı, onlara qarşı mübarizə aparacağımı düşünürdüm.

Məni xanəndə kimi görmək anamın arzusu idi. Ancaq mən buna qeyri-ciddi yanaşırdım. Bir gün məndən xəbərsiz anam dayımla birlikdə böyük sənətkarımız Mənsum İbrahimovun yanına gedib və deyib ki, oğlumun çox yaxşı səsi var, onu dinləməyinizi xahiş eləyirəm. Mənsum müəllim də razılaşıb. Onda mənim artıq 27 yaşım var idi və bir neçə il idi ki, hüquq mühafizə orqanlarında çalışırdım. Düzü, ilk eşidəndə anama etiraz etdim, nahaq yerə getdiklərini, oxuyan olmayacağımı dedim. Nədənsə, bu sahə mənə çətin gəlirdi. Bəlkə də səbəb xarakterimdə olan utancaqlıq idi. Amma getdim və bir də ayıldım ki, artıq sənətdəyəm. 2003-cü ildə Asəf Zeynallı adına Musiqi Kollecinə daxil oldum. Bir il sonra Opera və Balet Teatrına dəvət aldım. Burada səhnə fəaliyyətimə «Leyli və Məcnun» tamaşasında İbn Səlam obrazı ilə başladım. 2006-cı ildə isə dahi sənətkarımız Müslüm Maqomayevin «Şah İsmayıl» operasında baş rol – Şah İsmayıl mənə həvalə olundu. Bu tamaşalarla bərabər, «O olmasın, bu olsun», «Natəvan» operalarında xanəndə rolunu ifa etdim.

Heydər Əliyev Fondunun keçirdiyi 3 böyük layihənin – 2005-2006-cı illərdə ilk Televiziya Muğam Müsabiqəsinin, 2009-cu ildə keçirilən Ümumrespublika Muğam Müsabiqəsinin və Beynəlxalq Muğam Festivalının qalibi oldum. Bu yaxınlarda 5-ci diskim işıq üzü gördü. Bütün bu uğurlar, eyni zamanda, dövlət başçısının Sərəncamı ilə gənc yaşda Əməkdar artist fəxri adına layiq görülməyim mənim üçün böyük stimul oldu.

**- Qısa zamanda bu qədər uğur qazanmaq və sevilmək hər kəsə nəsib olmur. Həyatınızdakı bu qəfil dəyişikliklər sizi insan olaraq dəyişmədi ki?**

- Həqiqətən də, Televiziya Muğam Müsabiqəsi bizi cəmi 3 ayın içində xalqa tanıtdı və sevdirdi. Həmin dövrdə bir gün görkəmli sənətkarımız Rasim Balayev məni, sənət dostlarım İlkin Əhmədovu və Babək Niftəliyevi kənara çəkib, bizə bir məsləhət vermək istədiyini dedi. Bildirdi ki, mən də sizin kimi qəflətən tanınmışam və xalqın sevimlisinə çevrilmişəm. Bu cür tanınanda insanın özünü nəzarətdə saxlaması bir az çətindir. Çalışın, bu dövrdə özünüzü itirməyəsiniz. Əgər ulduz xəstəliyinə tutulsanız, irəli gedə bilməyəcəksiniz. Çünki uğur qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir.

Bu sözlər hər zaman yaddaşımdadır. Ona görə deyə bilərəm ki, məşhurluq məni dəyişməyib, bir sözlə, ulduz xəstəliyinə tutulmamışam. Bu məsələdə insanın xarakteri, ailədə aldığı tərbiyə də mühüm rol oynayır.

**- Tənqidə münasibətiniz necədir?**

- Normaldır. Elə əsas tənqidçim də özüməm. Əvvəlki lent yazılarıma baxıram, dinləyirəm, təbii ki, bəyənmədiyim nələrsə olur. Onları düzəltməyə çalışıram. Ustadlara yaxınlaşıb, ifamda hər hansı qüsur görüb-görmədiklərini soruşuram. Hər zaman məni bu sənətə gətirən insanla – ustadım Mənsum müəllimlə, sənət dostlarımla məsləhətləşirəm. Deyilən hər bir fikri nəzərə alıram.

İndi biz öyrənirik ki, gələcəkdə də kimlərsə bizə baxıb öyrənə bilsin. Böyük sənətkarların qoruyub bu günə gətirdikləri klassik muğamlarımızı olduğu kimi gələcək nəslə ötürmək bizim borcumuzdur.

**- Muğamı qorumaq demişkən, sizcə, muğamla cazın və digər janrların sintezi, muğamda müəyyən improvizasiyaların edilməsi və s. onun mükəmməlliyinə, özəlliyinə xələl gətirir?**

- Əlbəttə ki, yox. Muğamda hər cür improvizasiyalar etmək mümkündür. Onu cazla da, estrada musiqisi ilə də və s. sintez etmək olar. Əsas məsələ professionallıq və işə peşəkar yanaşmadır.

Hətta bir neçə il öncə professor Siyavuş Kəriminin ideyası əsasında Latın Amerikası musiqiçiləri ilə bərabər reallaşdırılan "Salam Hola" layihəsində mən də çıxış etmişəm və yüksək sənətkarlıqla hazırlanmış layihənin iştirakçısı olmaqdan zövq almışam.

Təbii ki, zövqlər müxtəlifdir. Hər ifaçının olduğu kimi, hər ifa tərzinin də öz tamaşaçısı, dinləyicisi var.

Bəzən deyirlər ki, estrada müğənniləri niyə muğam oxuyurlar? Mən bu fikrə çox təəccüblənirəm. Niyə oxumasınlar?! Muğamlar bizim milli musiqimizdir və əlbəttə ki, onların da oxumağa haqqı çatır.

Estrada müğənniləri adətən muğamı dəsgah şəklində deyil, ondan hər hansı bir şöbə oxuyurlar. Və ola bilər ki, kimsə muğamı elə o kiçicik ifadə sevər.

**- Xarici dövlətlərdə dəfələrlə Azərbaycan musiqisini təmsil etmək necə hissdir? Muğam başqa xalqlar tərəfindən necə qəbul olunur?**

- İndiyədək 30-a qədər ölkədə səfərdə olmuşuq, konsert proqramları ilə çıxış etmişik. Elə bir yer deyə bilmərəm ki, orada muğam ifa olunsun və xüsusi heyranlıqla qarşılanmasın, sevilməsin. Tamaşaçılar çox zaman hisslərini gizlədə bilmirlər, konsertdən sonra bizə yaxınlaşırlar, çox bəyəndiklərini, heyrətlə dinlədiklərini ifadə edirlər. Bəzən soruşurlar ki, bu zəngulələri necə etmək olar, yəqin boğazınıza xüsusi aparat yerləşdirmisiniz?

Əlbəttə ki, bütün bunları yaşayan insan Azərbaycan musiqisini təmsil etdiyi üçün ancaq qürur hissi keçirə bilər.

**- Həm də müəllim kimi fəaliyyət göstərirsiniz. Tələbə olmaq çətindir, ya müəllim?**

- Məsuliyyətli insan üçün hər işin, o cümlədən tələbəliyin də, müəllimliyin də öz çətinlikləri var. Mən müəllimlik fəaliyyətinə 2005-ci ildən başlamışam. Artıq 5 ildir ki, Azərbaycan Dövlət Milli Konservatoriyasında dərs deyirəm. Çalışıram ki, üzərimə götürdüyüm işlərin layiqincə öhdəsindən gəlim.

Mən ustadlarımızın bir fikri ilə də razılaşıram ki, müəllimlik peşəsi ilə məşğul olan zaman xanəndə tələbəni öyrədə-öyrədə özü də öyrənir.

Onu da qeyd edim ki, tələbələrim həm də muğam müsabiqələrində iştirak edirlər. Hətta sonuncu Televiziya Muğam Müsabiqəsində onlardan biri – Məhəbbət Səfərov ikinci yeri qazandı. Onlar səhnədə ifa edən zaman nə qədər həyəcan hissi keçirdiyimi sözlə ifadə edə bilmərəm. Mənim müsabiqələrdə çıxışım başlayandan bitənədək Mənsum müəllimin nələr çəkdiyini onda anladım. Həqiqətən, çox çətindir.

Yeri gəlmişkən vurğulayım ki, belə müsabiqələr gənclərin həyatında öz ifa tərzlərini göstərmələri üçün xüsusi rol oynayır. Əvvəlki nəsillərin uzun yol qət edərək, çətinliklərlə gəldikləri yolu biz qısa müddətdə keçdik. Müsabiqə keçirilən 3-4 ay ərzində orada iştirak edən gənclər xalqın sevimlisinə çevrilir və məşhurlaşırlar. İştirakçılar hər həftə oxuduqları sahənin mütəxəssislərindən nələrisə öyrənirlər. Hər həftə ustadların qarşısında çıxış etmək, repertuar hazırlamaq, canlı efirdə ifa etmək bu sahəyə yeni gələn gənc ifaçılar üçün böyük bir məktəbdir.

**- Təyyar müəllim, Ağdamı tərk edəndə oranı xatırlayacaq yaşda idiniz. Darıxırsınız heç?**

- Ağdam mənim doğulduğum torpaqdır. Hər zaman, hər dəqiqə darıxıram. Əslən müxtəlif bölgələrdən olub şəhərdə yaşayan insanlar tez-tez doğulduğu rayonlara gedir, əzizlərinin qəbrini ziyarət edirlər. Amma biz doğulduğumuz torpaqların havasını ciyərimizə çəkə bilmirik. Elə qıraqdan baxa-baxa qalırıq. Bu, olduqca ağır hissdir. Ağdamın işğal olunduğu vaxtları yadıma saldıqca əziyyət çəkirəm. O zaman Ağdamın nə vaxtsa işğal oluna biləcəyini heç ağlımıza da gətirmirdik. Yurd yerinin itirilməsinin nə olduğunu, onun ağırlığını bunu yaşayanlar kimi heç kəs hiss edə bilməz. O dəhşətli vaxtlarda atamı itirdim. Atamla birgə Ağdam çox şəhid verdi.

O yerlərlə bağlı o qədər xatirələrim var ki... Amma çətinlik çəkirəm danışmağa. Ağdam tez-tez yuxuma girir. Uşaq vaxtı gedib-gəldiyim yolları yuxuda görürəm. Mən işğal altında olan torpaqlarımızın, o cümlədən də Ağdamın azad olunacağına inanıram və o günü səbirsizliklə gözləyirəm. Allah o günü bizə nəsib edəcək.

**- İşinizə olduğu kimi, şəxsiyyətinizə də tələbkarlıqla yanaşdığınızı deyə bilərsinizmi?**

*(Ardı səhifə 9-da)*

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək – bizimlə gələcək!
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com
«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Təyyar Bayramov: «Hər bir insanın həyatında musiqi var»

*(Əvvəli səhifə 8-də)*

- Mən hesab edirəm ki, xanəndə davranışı ilə, mədəniyyəti ilə, insanlara münasibəti ilə, ədəb-ərkanı, geyimi ilə, bir sözlə, hər cəhətdən nümunəvi insan olmalıdır. Amma təkcə efirdə yox, həm də həyatda. Təəssüf ki, sənət adamlarında bu bəzən təzad təşkil edir. Əsas odur ki, vucdanını itirməyəsən.

Əslində, heç kim özü haqqında «vicdansızam» demir. İnsan özü haqqında həmişə yüksək fikirdə olur. Ancaq şəxsən mən çalışıram ki, vicdansızlıq etməyim, kiminsə haqqını tapdalamayım, zəhmətini itirməyim.

**- Komplekslisiniz?**

- Bəli, çox. Bəlkə də sənətimlə əlaqəlidir. Bəlkə başqa peşə ilə məşğul olsaydım, daha rahat olardım.

**- Qismətə inanırsınız?**

- Bəli. Məsələn, düşünürəm ki, xanəndə olmaq mənim qismətim, alın yazım imiş.

**- Risk edə bilən insansınız?**

- Bəli. 27 yaşımda həyatımın istiqamətini tamamilə dəyişə biləcək qədər.

**- Nə vaxtsa hüquq sahəsində fəaliyyətinizi yarımçıq qoymağınıza peşman olmusunuz?**

- Xeyr. Mənsum müəllim mənə demişdi ki, bu, çox çətin sənətdir, əgər əzmkarlıqla çalışacaqsansa, gəl. Çünki həmin dövrdə mənim yaşım az deyildi, doğru və çox ciddi qərar verməli idim. Qarşıma məqsəd qoydum və ardınca getdim. Peşman da deyiləm.

**- Sizcə, real həyatda Leyli və Məcnun məhəbbəti var?**

- Dastanlardan, əsərlərdən görürük ki, o cür böyük sevgilər nakam olanlardır. Bəlkə real həyatda da var. İndi ağlıma ancaq İlham və Fərizə gəlir.

**- Yeri gəlmişkən, heç Məcnunu oynamaq istəmisiniz?**

- Tanıyanlar bilir ki, görkəmimə, səsimə uyğun olduğuna görə Şah İsmayıl mənə çox doğmadır. Artıq 10 ildir ki, səhnədə Şah İsmayıl rolunu ifa edirəm. Məncə, Məcnun mənim görkəmimə uyğun deyil. Amma nə bilmək olar, bəlkə gələcəkdə onu da oynayaram. Onu zaman göstərər.

**- İdmanla məşğul olursunuz?**

- Vaxtilə yunan-roma güləşi ilə ciddi məşğul olmuşam. Yarışlara da gedirdim. Sonra zədə aldım və bu sahədən uzaqlaşdım.

**- Bir çox sənət adamları deyirlər ki, bu sahədə heç kim bir-birinə səmimi dost olmur...**

- Mənim xanəndə dostlarım var. Ümumiyyətlə, münasibətim pis olan sənət yoldaşım yoxdur. Çünki heç bir dedi-qoduya əhəmiyyət verən insan deyiləm.

**- Sizcə, musiqinin insan sağlamlığına, psixoloji vəziyyətinə təsiri var?**

- Əlbəttə. Mən demirəm ki, musiqi cərrahiyyəni əvəz edə bilər, ya hansısa ağır xəstəliyi sağaldar. Amma musiqi insana xoş təsir bağışlayır, ruhunu sağlamlaşdırır, onun psixoloji durumunu yaxşılaşdırır. Məncə, hər bir insanın həyatında janrından asılı olmayaraq musiqi var.

**- Bəzən deyirlər ki, muğam insanlarda ruh düşkünlüyü, depressiya yaradır...**

- Əgər muğam kimdəsə depressiya yaradırsa, qulaq asmasın. Məncə, ifaçıdan da çox şey asılıdır. Muğam coşqunluq, ruh yüksəkliyi də yarada bilər. Həm də muğamı hər beyin qəbul etmir axı, gərək beyin yetkin olsun. Yaxşı bir deyim də var ki, muğam ayağı yox, başı tərpədən janrdır.

**- Sonda həkimlərimizə arzularınızı eşitmək istərdik.**

- Mən həkimləri çox istəyirəm. Onlar bizim sağlamlığımızın keşiyində dayanırlar. Bizim hərəmiz bir sahədə xalqa xidmət edirik, onun əsgərləriyik. Həkimlər ön cəbhədə xidmət göstərənlərdir. Çünki onların işi daha çətin və məsuliyyətlidir. Həkimlərimizə sağlamlıq və uğurlar arzulayıram.

**Ü.FƏRZƏLİYEVA**

# Шунтированиям на открытом сердце приходит конец...



**Нанотехнологии, кажется, начинают реально помогать человечеству. По крайней мере, это попытались доказать ученые из Медицинской школы Гарварда и Массачусетского технического института: они создали мельчайшие частицы,способные прочищать артерии и улучшать самочувствие.**

Разработка, как отмечают исследователи, пока на стадии тестирования. Однако если она попадет в массовое производство, то сможет помочь миллионам людей по всему миру,страдающим сердечно-сосудистыми заболеваниями.

Ученые назвали свое творение нанобуром. Частицы разработанного вещества проникают в кровеносную систему человека и в буквальном смысле бурят любые новообразования, мешающие кровотоку. Сами частицы вреда сосудам и организму не наносят.

«Это превосходный пример использования нанотехнологий в здравоохранении. Частицы вводятся при помощи обычной инъекции», -комментирует преимущество своего изобретения один из авторов разработки нанобура РобертЛангер, профессор Массачусетского института.

В университете, где была разработана технология,отмечают, что новинка отлично заменяет дорогостоящие и малоэффективные (по сравнению с наночастицами) препараты для чистки сосудов. Кому же, использование подобного метода избавляет человека от необходимости делать операцию при возникших проблемах с сердечно-сосудистой системой.

Профессор также добавил, что никаких побочных эффектов от использования наночастиц пока зафиксировано не было.




# Azərbaycan dövləti 3 minədək xəstəni hemodializlə təmin edir

**Respublika Klinik Uroloji Xəstəxanasında il ərzində 1200-ə qədər cərrahiyyə əməliyyatı, o cümlədən pielolitotomiya, ureterolitotomiya, nefrektomiya, adenomektomiya, sistelitotomiya və s. əməliyyatlar icra olunur. Bu rəqəm xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanlara dövlət qayğısı ilə bağlı Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasında keçirilən «dəyirmi masa»-da səsləndirilib.**

Tədbirdə qeyd olunub ki, əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş dövlət proqramlarının xüsusi rolu var. O cümlədən, əvvəllər səhiyyənin qarşısında duran ən çətin problemlərdən biri olan xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların problemləri də 2006-cı və 2010-cu illərdə qəbul olunmuş müvafiq dövlət proqramları sayəsində öz həllini tapır.

Toplantıda **Respublika Uroloji Xəstəxanasının Böyrəkköçürmə şöbəsinin müdiri Şahlar Nəsirov** qeyd edib ki, xroniki böyrək çatışmazlığı uzun sürən böyrək xəstəliyi nəticəsində əmələ gələn haldır. Həm dünyada, həm də ölkəmizdə belə xəstələrin sayında artım tendensiyası var. Böyrək çatışmazlığı xəstəliyinin müalicəsində uğurlardan və problemlərdən danışan Ş.Nəsirov qeyd edib ki, Azərbaycanda hemodializ qəbul edən xəstələrin əksəriyyətində böyrək çatışmazlığına səbəb şəkərli diabetdir. O bildirib ki, ən son avadanlıqlarla təchiz olunmuş, yüksək ixtisaslı kadrlara malik Akademik M.C.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasında son üç ildə 49 xəstəyə canlı donordan uğurla böyrək



köçürülüb. Klinikanın 10 çarpayılıq hemodializ şöbəsində isə il ərzində 3700-dək dializ seansı aparılır.

Şöbə müdirinin sözlərinə görə, ölkəmizdə hazırda 100-dən artıq xəstə böyrək köçürülməsi üçün növbədə dayanıb: Böyrək əməliyyatlarının dünya üzrə müvəffəqiyyət göstəricisi 95-97 faiz təşkil edir. Azərbaycanda isə bu göstərici 92-95 faiz arasında dəyişir. Son beş ildə yalnız bir əməliyyatda ölüm halı qeydə alınıb. Hazırda Azərbaycanda böyrək köçürülməsi əməliyyatı olunmuş 732 nəfər var və onların dərman preparatları ilə təminatını dövlət öz üzərinə götürüb.

Ş.Nəsirov bildirib ki, klinikanın Qəbul şöbəsinə il ərzində 4 mindən artıq xəstə müraciət edir. Onlardan təxminən 1000 nəfərinə ambulator müalicə təyin olunur. Xəstəxananın Uşaq uroloji şöbəsində isə il ərzində 2 100-dən artıq xəstə ambulator müayinədən keçirilir. Onlardan təxminən 500 nəfəri cərrahiyyə əməliyyatına götürülür. Klinikada uşaqlarda plastik cərrahiyyə əməliyyatları (ureteropieloanastomoz, ureterosistoneostomiya, antevazal pieloanastomoz, uretroplastika və s.), aşağı və yuxarı sidik yollarının əməliyyatları icra olunur.

Distansion litotripsiya kabinetində isə böyrək, yuxarı və aşağı sidik yolları daşlarının yüksək tezlikli zərbə dalğaları ilə parçalanması icra edilir.

Bildirilib ki, bu gün Azərbaycanda xroniki böyrək çatışmazlığından əziyyət çəkən 3 minədək xəstə 34 mərkəzdə dövlət hesabına hemodializlə və müvafiq dərman vasitələri ilə tam həcmdə təmin olunur. Eyni zamanda, son illərdə regionlarda açılan yeni dializ mərkəzləri əhalinin öz yaşadığı yerə yaxın pulsuz müalicə almasına imkan yaradır. Belə ki, mərkəzlərin 26-sı bölgələrdə yerləşir. Bütün ölkə üzrə hemodializ növbəsinin artıq aradan qaldırıldığı vurğulanıb.



Tədbirdə diqqətə çatdırılıb ki, Nazirlər Kabineti tərəfindən 2006-cı və 2010-cu illərdə xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramlarının qəbulu ilə əlaqədar bu xəstələrin aşkarlanması və aktiv müalicəyə cəlb olunması, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı mümkün olub. Hazırda Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli qərarı ilə yeni qəbul edilən və 2016-2020-ci illəri əhatə edən «Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı» nefroloji yardımın daha da təkmilləşdirilməsinə, yeni dializ mərkəzlərinin yaradılmasına, xroniki böyrək çatışmazlığı olan xəstələrin ömrünün uzadılmasına, onların həyat keyfiyyətinin yaxşılaşdırılmasına və tibbi-sosial reabilitasiyasına, hemodializ müalicəsi alan və böyrək köçürülmüş xəstələrin davamlı dərman təminatına yönəlib.

«Dəyirmi masa»da həmçinin məlumat verilib ki, Uroloji Klinika əhaliyə tibbi xidmət göstərən xəstəxana olmaqla yanaşı, həm də Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Urologiya və operativ nefrologiya kafedrasının bazası kimi də fəaliyyət göstərir.

Klinikanın həkimləri tərəfindən Bakı şəhərində və regionlarda fəaliyyət göstərən tibb müəssisələrində, həmçinin penitensiar tibb müəssislərində mütəmadi olaraq ağır xəstələrin konsultasiyası aparılır, eləcə də rayonlarda uronefroloji tibbi yardımın təşkili üçün xəstəxananın həkimləri tərəfindən səyyar təşkilatı-tibbi-məsləhət toplantıları və konfranslar təşkil edilir.

Akademik M.C.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası ölkəmizdə uronefroloji tibbi xidmətin ixtisaslaşmış yeganə tibb idarəsi olduğundan, rayonlarda çalışan uroloq və nefroloqlar da ixtisasartırma kurslarından keçmək üçün vaxtaşırı klinikaya ezam olunurlar.

# 22-ci Azərbaycan Beynəlxalq Səhiyyə Sərgisi keçirilib

**Bakı Ekspo Mərkəzində Səhiyyə Nazirliyinin dəstəyi, «İteca Caspian» və «İTE Group PLC» şirkətlərinin birgə təşkilatçılığı ilə tibb sahəsində regionun ən iri ixtisaslaşdırılmış tədbiri olan 22-ci Azərbaycan Beynəlxalq Səhiyyə Sərgisi («BIHE-2016») keçirilib. Sentyabrın 19-dan 21-dək davam edən sərginin açılış mərasimində səhiyyə nazirinin müavini Elsevər Ağayev çıxış edərək ölkəmizdə səhiyyə sahəsində əldə olunmuş uğurlardan danışıb. Qeyd edib ki, sərgidə iştirak edən ölkələrin sayının ildən-ilə artması Azərbaycan səhiyyəsində inkişafın, o cümlədən ölkəmizdə hökm sürən ictimai-siyasi sabitliyin əyani sübutudur. Onun sözlərinə görə, 22-ci dəfə keçirilən beynəlxalq səhiyyə sərgisi Azərbaycanın daim artan iqtisadi qüdrətinin bariz nümunəsidir.**

Nazir müavini bu il sərgidə 20 ölkədən 121 şirkətin iştirak etdiyini, onların arasında Azərbaycan, Almaniya, Belarus, Çin, İtaliya, Rusiya, Türkiyə, Çexiya, Ukrayna və digər ölkələrin təmsilçilərinin olduğunu deyib. Sərgidə xarici istehsalçılarla yanaşı, dünyanın nəhəng istehsalçıları ilə tərəfdaşlıq edən yerli tibbi avadanlıq distribüterlərinin də iştirak etdiyini vurğulayıb.

Tədbirdə Belarus səhiyyə nazirinin müavini Valeriy Şevçuk, Azərbaycan Stomatoloji Assosiasiyasının sədri Rəna Əliyeva, sərgilər direktoru (TÜRSAB) Sevinc Özkan Divrikli, «İteca Caspian» şirkətinin icraçı direktoru Fərid Məmmədov çıxış edərək sərginin işinə uğurlar arzulayıblar. Çıxışlarda belə böyük tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Azərbaycan hökumətinə minnətdarlıq ifadə olunub.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Azərbaycan Stomatoloji Assosiasiyasının, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) da təşkilati dəstək göstərdiyi «BIHE-2016» sərgisində tibbi və laboratoriya avadanlıqları, istehlak məhsulları, dərman preparatları, tibbi alətlər və farmakoloji avadanlıqlar kimi sektorlar təqdim olunub. Builki sərginin fərqləndirici cəhətlərindən biri farmakologiya sektorunun inkişaf etməsidir. Şirkətlər bu sektor çərçivəsində farmakologiya üzrə avadanlıq və texnologiyaları, eləcə də dərman zavodlarının istifadəyə hazır şəkildə tikintisini təqdim ediblər. Xaricdə müalicənin təşkili ilə məşğul olan 20-dən artıq klinika və şirkəti bir araya gətirən «Tibbi turizm» sektoru da maraq doğurub. Bu klinika və şirkətlər arasında Belarus, Almaniya, Latviya, Türkiyə və Çexiyanın klinika, sanatoriya və müalicə ocaqları yer alıb. Artıq ardıcıl olaraq ikinci ildir ki, «Tibbi turizm» sektoru Türkiyə Turizm Agentlikləri Assosiasiyası (TURSAB) tərəfindən dəstəklənir.

«BIHE-2016» sərgisi ilə paralel daha iki tədbir - 11-ci Azərbaycan Beynəlxalq stomatologiya sərgisi («Stomatology Azerbaijan-2016») və 10-cu Yubiley Azərbaycan Beynəlxalq gözəllik və estetik tibb sərgisi («Beauty Azerbaijan-2016») keçirilib.

*(Ardı səhifə 11-də)*

**BAŞ SPONSOR:** HB Co LTD
*Sağlam gələcək - bizimlə gələcək!*
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

# Ümumdünya İlk Tibbi Yardım Günü

**2000-ci ildən etibarən Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatına üzv ölkələrinin təşəbbüsü ilə hər il sentyabr ayının ikinci şənbəsi Ümumdünya İlk Tibbi Yardım Günü kimi qeyd olunur. Əsas məqsəd baş verən müxtəlif hadisələrdə insanların həyatını xilas etmək üçün mülki şəxslərə həkimə qədər necə yardım göstərilməsini öyrətməkdir.**

Dünyada ilkin tibbi yardım xidməti hələ XIX əsrin sonlarında yaranıb. Azərbaycanda isə ilk təcili tibbi yardım xidmətinin əsası 1922-ci ildə qoyulub. Ötən əsrin əvvəllərində Bakıda tibbi yardım göstərmək üçün at arabalarından istifadə edilirdi. O zaman Sabunçu ərazisində bir həkimin və iki mamanın çalışdığı tibbi yardım xidməti fəaliyyət göstərirdi. Təcili tibbi yardım bəzi paytaxt xəstəxanalarının nəzdindəki xüsusi şöbələr tərəfindən həyata keçirilirdi.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkədə təcili tibbi yardım xidmətinin inkişafına böyük diqqət göstərilməyə başlanıldı. Xüsusilə də son illər təcili tibbi yardım avtomobilləri parkı yenilənir, müasir tibbi avadanlıqları olan nəqliyyat vasitələri əhaliyə xidmət üçün növbəyə buraxılır. Eyni zamanda, dərman təchizatı ildən-ilə yaxşılaşdırılır, çeşid genişləndirilir, tibbi heyət müasir uniforma ilə təchiz edilir, həkim və orta tibb işçilərinin peşəkarlığı daha da artırılır.

Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının (BŞTTTYS) 103 xidmətinə 2016-cı ilin yanvar-avqust ayları ərzində 300 mindən artıq ümumi müraciət daxil olub. Onlardan 25 mindən çoxu xəstəxanalara yerləşdirilib. Uşaqlar üçün edilən çağırışların sayı 37 mindən, onlardan xəstəxanalara yerləşdirilənlərin sayı isə 5 mindən artıq olub.

Bu barədə Səhiyyə Nazirliyi Mətbuat Xidmətinin Bakı şəhərində təcili tibbi yardım xidmətinin fəaliyyəti ilə bağlı yaydığı məlumatda bildirilir. Qeyd edilir ki, son illərdə Azərbaycanın iqtisadi və sosial inkişafının, səhiyyə sisteminin təkmilləşməsinə diqqət və qayğının nəticəsində bu sahədə əhaliyə göstərilən tibbi xidmət əhəmiyyətli dərəcədə yaxşılaşıb. Digər tibb ocaqları kimi, BŞTTTYS-nın iş prinsipi, dərman preparatları ilə təminatı, tibbi avadanlıqlarla təchizatı da müasir standartlara uyğunlaşdırılıb.

Məlumatda bildirilir ki, paytaxtda 103 xidmətinə hər gün 2 minə qədər, bəzən isə daha da artıq çağırış daxil olur. Bütün bu çağırışlar səbəbindən asılı olaraq təcili (20 dəqiqə ərzində yerinə yetirilir) və təxirəsalınmaz (60 dəqiqədən gec olmayaraq icra edilir) çağırışlar kimi çeşidlənir, buna müvafiq surətdə bölmələrin həkimlərinə ötürülür və icra edilir.

Bu müddət ərzində 1000 nəfərdən çox xəstə reanimasiya tədbirlərinin görülməsi sayəsində çox ağır vəziyyətlərdən çıxarılıb və həyatı xilas edilib. Miokard infarktı ilə 480 müraciət, 465 hospitalizasiya; insultla 1500 müraciət, 1400 hospitalizasiya; doğuşla bağlı 1600 müraciət, 1590 hospitalizasiya; avtoqəza zamanı xəsarətlə bağlı 900 müraciət, 800-dən artıq hospitalizasiya olub. 30 nəfərdə xəstəxanadan kənar doğuş olub, onların da hamısı hospitalizasiya edilib. Evdə qalan xəstələr haqqında ərazi üzrə müvafiq poliklinikalara məlumat verilib. Ümumiyyətlə, təcili yardım xidmətində digər tibb müəssisələri ilə sıx əlaqəli işin təşkilinə xüsusi diqqət yetirilir. Çağırış zamanı aşkar edilən zahı və hamilə qadınlar barəsində müvafiq qadın məsləhətxanasına məlumat verilir.

Məlumatda həmçinin bildirilir ki, hesabat müddətində təcili tibbi yardıma ehtiyacı olan 150 nəfər yaşayış yeri məlum olmayan şəxsə ilkin tibbi yardım göstərilərək müvafiq xəstəxanalara yerləşdirilib.

Yay mövsümü başlanandan ilan sancması ilə əlaqədar cəmi 14 müraciət olub, bunlardan 12 halda zərərçəkən hospitalizasiya edilib.

BŞTTTYS-nın pediatrik reanimasiya briqadalarının da işi təkmilləşdirilib. Belə ki, Səhiyyə Nazirliyi tərəfindən ayrılmış yeni küvez aparatlarının köməyi ilə uzaq rayonlardan gətirilən, eləcə də paytaxtın doğum evlərində az çəkili və ya ağır qüsurlarla doğulmuş 500-ə qədər körpə Respublika Perinatal Mərkəzinə və K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutuna hospitalizasiya edilib.

İşin səmərəliliyini yüksəltmək məqsədi ilə yeni çağırış vərəqi forması hazırlanaraq Səhiyyə Nazirliyinə təqdim olunub. Bu formanın gələcəkdə planşetlərə də yüklənməsi nəzərdə tutulub. Bu məqsədlə 138 ədəd daha çox funksiyalı müasir planşetlər alınıb. Yeni proqram hazır olduqdan sonra planşetlərə yazılaraq həkimlərin istifadəsinə veriləcək. Təcili tibbi yardımın keyfiyyətini artırmaq və bəzi nöqsanları aradan qaldırmaq məqsədi ilə stansiyaya zəng edən şəxsin həmin an yerləşdiyi məkanın dəqiq təyin edilməsi sistemi də nəzərdə tutulub. Bunun köməyi ilə ünvanın dəqiqləşdirilməsinə sərf olunan vaxta qənaət olunacaq və yalançı çağırışların qarşısı alınacaq. Çağırışın dəqiq ünvanı, adına çağırış verilən şəxs haqqında bütün məlumatlar elektron sistem vasitəsilə dərhal həkimin planşetinə ötürüləcək. Həmin məlumatlar əsasında həkim hətta yolda olarkən xəstə ilə bağlı ətraflı məlumatları əldə edə biləcək. Bu da vaxt itkisinin qarşını almağa və təcili tibbi yardımın keyfiyyətinin yüksəlməsinə imkan verəcək.

Hazırda 103 xidmətinə gündəlik daxil olan çağırışların qeydiyyatı, yönləndirilməsi və hesabatı proqramının, həmçinin hospitalizasiyanın təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Yeni naviqasiya sisteminin tətbiqi məqsədilə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinə müraciət olunub.

Yeni elektron sistem gələcəkdə yaradılması nəzərdə tutulmuş icbari tibbi sığortanın tətbiqi zamanı məlumatların ötürülməsinə şərait yaradacaq. Səhiyyə Nazirliyi tərəfindən hər bir vətəndaş üçün yaradılması nəzərdə tutulan elektron səhiyyə kartında vətəndaşın təcili yardıma nə zaman müraciət etməsi, hansı diaqnozla müalicə alması barəsində məlumatlar toplanacaq. İstənilən tibb müəssisəsinə müraciət etdiyi halda vətəndaşa məxsus kod nömrəsini və ya şəxsiyyət vəsiqəsinin nömrəsini sistemə daxil etməklə həmin şəxsin sağlamlığı barədə məlumat əldə etmək mümkün olacaq.

Hesabatda həmçinin qeyd edilir ki, stansiyanın Əməliyyat və hospital işlərin təşkili və Müalicə-metodik işlərin təşkili şöbələrinin böyük həkimləri tərəfindən ünvanlara zənglər olunaraq, göstərilən ilkin tibbi yardımın keyfiyyəti barədə sorğular aparılır.

2016-cı ilin başlanğıcından bu günədək BŞTTTYS-nın həkim və orta tibb işçilərinin ünvanına 83 təşəkkür məktubu və zəngləri də daxil olub, həmin şəxslərə stansiyanın rəhbərliyi tərəfindən təşəkkür elan edilib.

Stansiyanın bütün həkimləri sertifikasiyadan keçib. Hazırda orta tibb işçilərinin sertifikat almaları istiqamətində müvafiq işlər aparılır.

Əhaliyə göstərilən təcili və təxirəsalınmaz tibbi yardım dövlət tərəfindən maliyyələşdiyindən, vətəndaşlar bu xidmətdən ödənişsiz istifadə edirlər və edəcəklər.

*(Əvvəli səhifə 10-da)*

# 22-ci Azərbaycan Beynəlxalq Səhiyyə Sərgisi keçirilib

